*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2024, № 2*
*Səhifə: 97-102*
*https://doi.org/10.59849/2663-4406.2024.2.97*

*ISSN: 2663-4406*
*E-ISSN: 2709-2699*

## UŞAQ ƏDƏBİYYATI

# Zahid Xəlilin uşaq nəsrində əxlaqi-mənəvi dəyərlərin təlqin üsulları

**Şöhrət Məmmədova**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universiteti
E-mail: sohret.nesirova24@gmail.com
https://orcid.org/.0009-0006-6553-6385

**Annotasiya.** İyirminci əsrin ikinci yarısından sonrakı ədəbiyyatın yaddaşına şair, nasir, alim, tərcüməçi kimi adını yazmış Zahid Xəlilin yaradıcılığında mühüm bir hissəni uşaqlar üçün yazdığı nəsr örnəkləri təşkil edir. Ümumiyyətlə, uşaq ədəbiyyatının dinamik mənzərəsi bütünlükdə ayrı-ayrı onilliklər səviyyəsində əsaslı axtarışlarla, yeni-yeni istedadlı sənət adamlarının ədəbiyyata gəlişi ilə səciyyələnir. Əsrin əvvəllərindən başlayan zənginləşmə bütün parametrlərdə nəsri, poeziyanı, dramaturgiyanı, publisistikanı və elmi-nəzəri təhlilləri əhatələməklə səciyyələnir. "Dəbistan", "Rəhbər", "Məktəb" kimi mətbu orqanlarının fəaliyyəti, gördüyü gərəkli işlər, eləcə də S.M.Qənizadə, M.Mahmudbəyov, A.Səhhət, A.Şaiq, R.Əfəndiyev, Naseh, Y.Əfəndizadə, M.Hadi, Ə.Müznib, Ə.İbrahimov, Ə.Hüseynzadə, Ə.Ülvi, C.A.Şirvani, Ə.Nəzmi, M.Sidqi, C.Əsgərzadə, İ.Həqqi, C.Cabbarlı, Ə.Dai və s. kimi ədiblərin gördüyü gərəkli işlər sonrakı mərhələdə bir örnək, qaynaq olma funksiyasını yerinə yetirir. Z.Xəlil də məhz bu ənənələr üzərində köklənmiş və uşaqların fantastik dünyasını, maraq və təsəvvürlərini, qaynar həyatını müxtəlif səviyyələrdə yazıya gətirmək yolunu tutmuşdur.

Uşaq ədəbiyyatının yaddaşına adını şair kimi yazan Z.Xəlilin yaradıcılığı nəsr nümunələrinin metatekstuallıq səviyyəsində sərgilədiyi mənzərə ilə də diqqətçəkici təsəvvür yaradır və müxtəlif aspektləri ilə sinxron və diaxron yanaşmaları zəruriləşdirir. Xalqın zəngin yaradıcılığından gələn ifadə üsulları, epik təhkiyənin verdiyi imkanlar, nağıl, əfsanə, rəvayət, dastan və s. nümunələrin ortaya qoyduğu məzmun və forma möhtəşəmliyi bir etnoenerji olaraq ədibin əsərlərində özünü aydınlıqla göstərir. Bütün bunların mahiyyət səviyyəsində Z.Xəlilin yaradıcılığında sistemli şəkildə təhlili ümdə olan məsələlərdən biri olaraq aktuallıq kəsb edir.

**Açar sözlər:** Epik təhkiyə, uşaq nəsri, Z.Xəlil, hekayə, nağıl, rəvayət, atalar sözü, məsəl, təmsil

**Məqalə tarixçəsi:** göndərilib – 27.09.2024; qəbul edilib – 14.10.2024

# Methods of teaching moral and spiritual values in children's prose by Zahid Khalil

**Shohrat Mammadova**
Doctor of Philosophy in Philology, Associate Professor
Azerbaijan State Pedagogical University
E-mail: sohret.nesirova24@gmail.com
https://orcid.org/.0009-0006-6553-6385

**Abstract.** An important part of the works of Zahid Khalil, who wrote his name in the memory of literature after the second half of the 20th century as a poet, prose writer, scientist, and translator, are the prose examples he wrote for children. In general, the dynamic landscape of children's literature is characterized by fundamental searches at the level of individual decades, and the arrival of new talented artists in literature. The enrichment that began at the beginning of the century is characterized by the inclusion of prose, poetry, drama, journalism and scientific-theoretical analyzes in all parameters. The activities of press agencies such as "Debistan", "Rehber", "Mekteb", as well as S.M.Ganizade, M.Mahmudbeyov, A.Sahhat, A.Shaig, R.Efendiyev, Naseh, Y.Efendizade, M.Hadi, A.Muznib, A.Ibrahimov, A.Huseynzade, A.Ulvi, S.A.Shirvani, A.Nazmi, M.Sidgi, J.Asgarzade, I.Haggi, J.Jabbarli, A.Dai, etc. the necessary work done by writers such as. Z. Khalil was rooted in these traditions and took the path of writing down the fantastic world of children, their interests and imaginations, and their hot lives at different levels.
The creativity of Z.Khalil, who wrote his name in the memory of children's literature as a poet, creates a remarkable image with the scene exhibited by the prose examples at the level of metatextuality and necessitates synchronic and diachronic approaches with its various aspects. The methods of expression that come from the rich creativity of the people, the possibilities provided by epic development, fairy tales, legends, narratives, epics, etc. the grandeur of the content and form revealed by the examples clearly shows itself in the writer's works as an ethnoenergy. Systematic analysis of all these in Z.Khalil's work at the essence level becomes relevant as one of the most important issues.
**Keywords:** epic challenge, children's prose, Z.Khalil, story, fairy tale, narration, proverb, fable

**Article history:** received – 27.09.2024; accepted – 14.10.2024

## Giriş / *Introduction*

Çağdaş uşaq ədəbiyyatının ən parlaq nümayəndələrindən olan Z.Xəlilin yaradıcılığında aparıcı funksiyalardan birini etnik milli-mənəvi dəyərlərin gənc nəslə prinsip olaraq aşılanması məsələsi tutur. Folklorun ayrı-ayrı örnəklərində aparıcılıqla özünü göstərən tərbiyə və davranış modelləri, ailə institutunun ortaya qoyduğu prinsiplər, kutsal normativlər və ibtidai zamandan günümüzə daşınan qəlibləşmələr bütün postulatları ilə folklorda, eləcə də ədəbiyyatın yazılı qolunda daşınmaqla özünü təzahür etdirir. Z.Xəlilin də zəngin yaradıcılığı bunları əsas götürməklə onilliklər ərzində bir qaynaq olaraq gələnən yola işıq tutmuşdur.





## Əsas hissə / *Main Part*

**Uşaq ədəbiyyatının tarixi-mədəni mənzərəsi.** Q.Zakir, S.Ə.Şirvani, A.Səhhət, A.Şaiq, R.Əfəndiyev, M.Ə.Sabir, M.M.Seyidzadə, M.Dilbazi, M.Rzaquluzadə və s. kimi klassiklərin zəngin yaradıcılığı sonrakı dönəmlər uşaq ədəbiyyatı üçün əsaslı qaynağa çevrilir və bu sahədə ciddi təsirlə müşahidə olunur. Dövlət və hökumət səviyyəsində verilən qərar və qətnamələr, ayrı-ayrı plenum və qurultaylarda vaxtaşırı uşaq ədəbiyyatının ümumi vəziyyəti ilə əlaqədar müzakirələr, görülən tədbirlər konseptual yanaşmalar üçün əsas olur. Yazıçılar ittifaqında uşaq ədəbiyyatının ümumi problemləri ilə bağlı keçirilən müşavirə (1951) və ondan sonrakı mərhələnin mənzərəsi, S.Vurğunun "Ana və körpə", "Deyin, gülün, övladlarım", O.Sarıvəllinin "Balaca dostlar", S.Rüstəmin "Coğrafiya dərsində", M.Rahimin "Balaca bağbanlar", Ə.Cəmilin "Bahar nəğməsi" və s. kimi poetik örnəklər, eləcə də M.Cəlalın "Aqil", "Qorxu", "İki rəssam", S.Rəhimovun "Kəkilli toyuq və caynaqlı çalağan", "Tikanlı arı və xallı kəpənək", "Sarı sünbül və qulaqlı dovşan", Ə.Vəliyevin "Madarın dastanı", Ə.Məmmədxanlının "Buz heykəl", "Qızıl qönçələr", "Baş xiyabanda", "Balaca Nərgiz" və s. nəsr nümunələri, Ə.Abbasovun "Alma bağı", "Məlik Məmməd", "Aqil və Sərvinaz", M.Təhmasibin "Çiçəkli dağ", "Çandranın kəli" və s. dram əsərləri uşaq ədəbiyyatının yaradıcılıq axtarışlarına dayanan mənzərəsini əhatələyir.

Uşaq ədəbiyyatının vaxtaşırı hökumət və dövlət səviyyəsində müzakirələri, məsələn, yazıçılar ittifaqının 24 oktyabr 1962-ci il tarixdəki tədbir konseptual yanaşmalarla əlavə axtarışlar üçün əsas oldu. İ.Qasımovun, S.Rəhimovun, R.Rzanın, Q.Qasımzadənin məruzələri mahiyyətə yönəlik təklif və müddəalarla gəlinən yola əsaslı bir münasibət sərgiləyirdi. Bir qədər sonra (yazıçıların V qurultayı) B.Nəbiyevin "Uşaq ədəbiyyatını böyük tələblər səviyyəsinə qaldıraq" məruzəsi, daha sonra VI qurultayda (1976) M.Cəfərovun "İki qurultay arasında Azərbaycan uşaq ədəbiyyatı" mövzusunda çıxışı bütün məzmunu ilə gediləcək yolun diaxroniyasını müəyyənləşdirən məsələlərdir. Z.Xəlil də məhz bu zəngin yaradıcılıq axtarışlarında və uşaq ədəbiyyatı yaratmaq işində yaratdığı nəsr örnəkləri ilə ədəbi-mədəni prosesə öz töhfələrini vermişdir. "Uşaq ədəbiyyatı yeniyetmələrin dünyagörüşünün inkişafında, onların maraq dairəsinin genişlənməsində böyük rol oynayır. Bu ədəbiyyat kiçik oxucularını zəngin tarixi ənənələr və dövrün tələbləri ruhunda tərbiyə etməyə çalışır. Ona görə də uşaq ədəbiyyatına qayğı həmişə diqqət mərkəzində olmuşdur" [5, s. 326]. Milli özünüifadənin ən yaxşı örnəyi olan uşaq nəsri xalqın zəngin mədəniyyət təsəvvürlərinə, elat həyat tərzinin əsrarəngizliyinə, əxlaq və mənəviyyat konsepsiyasına dayanmaqla spesifiklik sərgiləyən bu axar bütün parametrlərdə etnokulturoloji sistemi əsas kimi diqqət mərkəzində saxlamışdır.

Orijinal yanaşmalarla, əsaslı təqdim modelləri ilə rəngarənglik sərgiləyən nəsr örnəkləri təkcə məzmun qatları ilə deyil, həm də ifadə modellərinin formul mükəmməlliyi ilə spesifiklik qazanır. Z.Xəlilin ayrı-ayrı illərdə yaratdığı "Arının düşməni", "Beçə", "Yumru-yumaq", "Tərs adam", "Qırmızıpapaq və canavar", "Qayıq sürən ayı balası", "Günəşi qoparmaq istəyən ayılar", "Hamıya nağıl danışmaq istəyən qız", "Ağca və Axca", "Günəşin dənizdə qalan saçları", "Dənizin tapşırığı", "Çiyələk çayının dibindəki oğlan", "Bədəlin şəhadət barmağı", "İnci", "Turalın atı" və s. epik təhkiyənin ümumi formulası və mətn simvolikasının ortaya qoyduğu mənzərə ilə əsaslı təsiredici funksiyasını diqqət önünə gətirir.

**Z.Xəlilin uşaq nəsrində milli-mənəvi dəyərlərin ümumi xarakteristikası.** Z.Xəlilin uşaq nəsri mövzu çeşidliliyi, bilgi vermə funksiyası ilə daha çox diqqətçəkici təsəvvür formalaşdırır. Məsələn, "Arının düşməni" hekayəsində arı və qızlar quşu" timsalında verilən bilgi uşaq maraqlarını və həm də dünyagörüşünü əhatələmək baxımından tipik örnəkdir. "Bizim yerlərdə arının birinci düşməni qızlar quşudur. O, sığırçın boyda balaca quşdur. Belinin və qanadlarının tükləri yaşıl rəngdədir. Payızda isti ölkələrə gedib yazda qayıdır. Qızlar quşu dəstə ilə arının suya gedən yolunu gözləyir və tutub yeyir. Bir quş gündə yüzə qədər arı tələf edir. Buna görə gərək

səbətləri meşənin içində bağların arasında qoyasan ki, işə gedən arılar gizlənə bilsinlər" [3, s.406]. Göründüyü kimi, bu mətn özlüyündə konkretliyi və məzmun aydınlığı ilə həyati təsəvvürlərə, məlum bilgilərin uşaqlara və mühitə çatdırılmasına köklənmə xüsusiyyəti ilə nəzər-diqqəti cəlb edir.

"Beçə", "Bal", "Arıların yeməyi", "Mum" və s. kimi bədii nümunələr bir istiqamətdə təhkiyə mükəmməlliyi ilə spesifikləşirsə, digər aspektdə təbiətin flora və fauna zənginliyinə maraq yaratmaq məramı ilə səciyyələnir. Və yaxud da canlılar aləmində zəhmətkeşliyi ilə diqqət çəkən gələn qarışqalar haqqında Z.Xəlilin bir-birindən maraqlı hekayələri vardır. "Əkinçi qarışqalar", "Qarışqa dostluğu", "Çapovulçu qarışqalar", "Qıdıqlamaq istəyən ot cücüsü", "Qarışqaların toyu", "Dayə qarışqalar", "Ağıllı və cəsur qarışqalar", "Qarışqaların evi" və s. nağıl-hekayələr də eyni təsəvvürə, bilgi verməyə və uşaq maraqlarından çıxış etməyə yüklənir. "Səni yəqin ki, belə bir sual düşündürür. Axı bir də görürsən ki, qarışqa uzun bir səfərə çıxdı. Bəs geri qayıdanda necə olur ki, başqa səmtə getmir?

Bunun səbəbi qarışqaların iy bilməsidir. Bir yana gedəndə qarışqanın öz ləpirinin iyi yolda qalır. Yuvaya qayıdanda həmin iyi tutub gedirlər və heç zaman da azmırlar.

Əgər müşahidə üçün qarışqanın keçdiyi yoldan torpağın bir hissəsini götürüb qırağa atsan, o həmin yerəcən gələcək və sonra öz ləpirinin iyini axtaracaq. Tapandan sonra başlayacaq getməyə" [3, s.399]. Burada isə qarışqa haqqında əsaslı, həm də diqqətçəkici informasiya zənginliyi var. Xalq arasında ayrı-ayrı heyvanlar haqqında bir-birindən maraqlı söhbətlər dolaşır. Region folklorunda toplayıcıların yazıya gətirdiyi nümunələr bunun göstəricisidir. "Qarışqanın yığdığını heç kəs yığa bilməz", "Qarışqadan ibrət al, yaz ikən qışa hazırlaş", "Qarışqanın evində şəbnəm böyük tufandır" [1, s.325-326] və s. atalar sözü xalq yaddaşında qəlibləşmiş ifadələrdir. Z.Xəlil də uşaqlar üçün yaratdığı nəsr nümunələrində folklor zənginliklərindən həm forma, həm də ifadə üsullarının rəngarəngliklərı baxımından əsaslı şəkildə bəhrələnir.

Xalq arasında məşhur "Süleyman şah və qarışqa" nağılı geniş işləklik qazanıb və orada tipik bir epizod var. "Qarışqa dedi:

– Mən bir buğda ilə yeddi il dolana bilərəm.

Süleyman şah dedi:

– Qarışqa, sənin bu sözlərini sınayacağam.

Süleyman şah qarışqanı götürdü, şəhərə gəldilər. Qarışqanı bir şüşənin içinə qoydurdu, yanına da bir buğda saldırdı. Şüşənin ağzını bərk-bərk müşəmmələtdi, sonra göydən asdırdı.

Nağıllarda vaxt tez gələr. Süleyman şahın başı kefə qarışdı, günlər gəlib keçdi. Birdən şah yadına saldı ki, qarışqanı şüşəyə saldığı vaxtdan yeddi il keçib. Adamlarına dedi:

– Qarışqanı bura gətirin.

Qarışqanı şahın hüzuruna gətirdilər. Süleyman şah şüşənin ağzını açdırdı. Gördü qarışqa o gördüyü kimidi, sağ-salamatdı. Buğdanın da hələ üçdə biri durur. Süleyman şah ondan soruşdu:

– A qarışqa, bu buğdanın üçdə birini niyə yeməyibsən?

Qarışqa dedi:

– Süleyman şah bir əhlikef adamdı. Qorxdum ki, yeddi ildən sonra da yadına düşməyəm, acından öləm. Ona görə də buğdanın üçdə birini saxladım" [2, s.500-501]. Xalq ədəbiyyatı bütün paradiqması ilə tərbiyəvi məzmun daşımaq funkyasına yüklənir. Nağıllar, əfsanələr, rəvayətlər, məsəllər və s. [7] bu zənginliyin tipik örnəyidir. Yazılı ədəbiyyat bundan bir qaynaq olaraq bəhrələnmək yolunu tutur. Z.Xəlil də ifadə üsullarının spesifikliyi, sintaktik fiqurların işləklik məqamlarından yararlanmaqla uşaqlara təbiətin flora və faunası haqqında təfsilatlı məlumat verməyə həssaslıq nümayiş etdirir. Ümumiyyətlə, "mənəviyyat tərbiyəsi gənc nəslin təbiət və cəmiyyətin inkişafı qanunauyğunluqlarını mənimsəməsinə, ictimai-tarixi biliklər əsasında müəyyən, konkret ideyaya yiyələnməsinə, onlarda dünyagörüşü və əqidə formalaşdırmağa kömək edir" [6, s.84]. Z.Xəlilin bədii nəsri milli əxlaqi-dəyərlərin spesifikası və əks etdirmə üsullarının özünəməxsus gedişləri ilə spesifikləşir. "Həsən baba", "Qarınqulu qarpız", "Çəmənlikdən qovulan





qurbağa", "Qabağa qaçan kirşə", "Dünyanın ən ədalətli gözətçisi", "Aytənlə Anarın nağılı", "İki ağcaqanad", "Körpə nəğmənin nağılı", "Ağıllı fikirlə axmaq fikir", "Budaqdan düzəldilmiş pişik", "Qaçağan dovşan", "Buynuzu gicişən çəpiş", "Qış nağılı", "İki tənbəl", "Çəyirtkələrin çəhrayı nağılı", "Dünyanın ən tənbəl tısbağası", "Uçmaq istəyən çiçəklərin əhvalatı", "Nağılın sonundakı alma" və s. bədii nəsr nümunələri uşaqlarda həyati bacarıq və vərdişləri, milli-mənəvi dəyərləri aşılamaq məramı ilə spesifikləşir.

Mərdlik, cəsarət, yoldaşlıq, dostluq, xeyirxahlıq, kimsəsizlərə kömək göstərmək, situasiyaya uyğun hərəkət edə bilmək, təbiətin sirli-sehrli aləmi haqqında əsaslı təsəvvür formalaşdırmaq və s. kimi keyfiyyətlərin örnək götürülməsi və müxtəlif hadisələr səviyyəsində təqdimi diqqətçəkici məsələ olaraq ciddi əhəmiyyət kəsb edir. Məsələn, Z.Xəlilin "İki tənbəl" nağıl-hekayəsi tipik şəraiti təqdim etmək xüsusiyyəti ilə spesifik xarakter daşıyır. "Biri vardı, biri yoxdu, iki tənbəl vardı. Bir dəfə bu tənbəllərin nənələri onları yanına çağırıb dedi:

– Meşəyə gedin. Bəlkə dovşandan-zaddan tutdunuz, bişirib yeyərik.

Nənələri tənbəllərin yoluna yağlı fətir qoydu.

Onlar meşəyə getdilər. Aydındır ki, əvvəlcə yağlı fətirləri yedilər. Sonra da ağacın kölgəsində uzandılar. Bir də gördülər ki, yolla bir ovçu gedir. Birdən kolun dibindən bir çaqqal qaçdı. Ovçu arxasına aldığı kisəni yerə qoydu ki, çaqqalı vursun. Ovçunun başı çaqqala qarışanda kisədən ayaqları bir-birinə bağlı iki dovşan çıxdı. Dovşanlar gəlib tənbəllərin lap yanında bir kola ilişib qaldılar. Ovçunun isə bu işdən xəbəri olmadı. Kisəni götürüb getdi. Tənbəllər əvvəl sevindilər. Sonra birinci tənbəl öz-özünə fikirləşdi. "Hərəmizə bir dovşan düşür. Əgər mən dovşanı evə aparsam nənəm deyəcək ki, indi bunun başını kəs, soy, apar yu. Bu boyda işi görə bilmərəm. Yaxşısı budur ki, bir kələk işlədim dovşanları Şaqqulu aparsın".

Şaqqulu isə öz-özünə fikirləşdi: "Dovşanları Vaqquluya sırıya bilsəm, gör nə olar ey! Evdə dovşanları kəsib təmizləyəndə altdan-altdan gülərəm" [3, s.106]. Mətn informasiyası və mahiyyəti canlandırma texnologiyası bütün təfsilatı ilə uşaqlarda qarşılaşdığı hadisə və əhvalatlara münasibəti ön xəttə çıxarır. Burada da epik təhkiyə nağıllardan gələn modelləri inisial, medial səviyyəsində canlandırmaqla gənc nəslin əməksevərlik baxımından tərbiyəsini bir məram olaraq diqqət önünə gətirir. "Bir qayda olaraq, xalq nağılı nağılçının dili ilə danışılır. Doğrudur, onun kimliyi bəlli olmur. Nağılı danışan qeyri-müəyyən zamanın qeyri-müəyyən şəxsiyyətidir" [4, s.75]. Z.Xəlil də uşaqlar üçün yazdığı nəsr nümunələrində bir forma olaraq bundan yararlanır və onların mənəvi dünyasına təlqin etdiyi dəyərlər səviyyəsində təsirə çalışır. Şəxsiyyətyönümlük kontekstində çatdırılan əhvalat və hadisələr gənc nəsli formalaşdırmağa, milli əxlaqi-dəyərləri üstün tutmağı aşılamağa köklənir. Uşaq bədii nəsrində, eləcə də Z.Xəlilin əsərlərində bunlar bir məram olaraq əsas götürülür.

## Nəticə / *Conclusion*

Zəngin yaradıcılıq yolu keçən Z.Xəlilin uşaq hekayələri folklordan gələn təhkiyə üsullarını, toplum timsalında etnik düşüncənin alt qatına oturuşmuş modelləşməni prinsipləşdirməklə orijinal bir canlandırma ilə diqqət önünə gəlir. Nağıl, əfsanə, rəvayət, məsəl, təmsil, atalar sözü və s. janrların işarələdiyi məzmun qatı, eləcə də uşaq düşüncəsində ucu-bucağı görünməyən həyatı öyrənmək cəhdləri bir tərəf olaraq müxtəlif formalarda özünə yer alır. Uşaqların iç dünyasını əks etdirmək və oradan çıxış etməklə müxtəlif mənəvi dəyərləri aşılamaq lazımi qədər ciddi məsuliyyət tələb edir. Z.Xəlil də bunlardan çıxış edərək bir yazıçı kimi həmin zənginliklərə köklənməklə uşaq ədəbiyyatına gərəkli töhfələr vermişdir.

**Ədəbiyyat / *References***

1. Atalar sözü. – Bakı: Yazıçı, 1981. – 366 s.
2. Azərbaycan ədəbiyyatı inciləri. Nağıllar. – Bakı: Yazıçı, 1985. – 506 s.
3. Xəlil, Z. Seçilmiş əsərləri. Altı clddə, II c. – Bakı: ADPU, 2008. – 408 s.
4. Məmmədov, M., Babayev, Y., Salamoğlu, T. Pedaqoji mühit və ədəbiyyatı. – Bakı: Maarif, 1992. – 288 s.
5. Namazov, Q. Azərbaycan uşaq ədəbiyyatı. – Bakı: Bakı Universiteti, 2007. – 444 s.
6. Talıbov, Y.R., Ağayev, Ə.A., İsayev, İ.N., Eminov, A.İ. Pedaqogika. – Bakı: Maarif, 1993. – 292 s.
7. Vəliyev, V. Azərbaycan folkloru. – Bakı: Maarif, 1985. – 414 s.

## Методика преподавания нравственных и духовных ценностей в детской прозе Захида Халила

**Шохрат Мамедова**
Доктор философии по филологии, доцент
Азербайджанский Государственный Педагогический Университет
E-mail: sohret.nesirova24@gmail.com
https://orcid.org/.0009-0006-6553-6385

**Резюме.** Важную часть произведений Захида Халила, внесшего своё имя в память литературы второй половины XX века как поэт, прозаик, учёный и переводчик, составляют прозаические образцы, написанные им для детей. В целом динамичный ландшафт детской литературы характеризуется фундаментальными поисками на уровне отдельных десятилетий, приходом в литературу новых талантливых художников. Обогащение, начавшееся в начале века, характеризуется включением по всем параметрам прозы, поэзии, драматургии, публицистики и научно-теоретического анализа. Важная работа таких органов печати, как «Дебистан», «Рахбар», «Мактаб», а также творческая деятельность таких писателей, как С.М.Ганизаде, М.Махмудбеков, А.Саххат, А.Шаиг, Р.Эфендиев, А.Насех, Й.Эфендизаде, М.Хади, А.Музниб, А.Ибрагимов, А.Гусейнзаде, А.Ульви, С.А.Ширвани, А.Назми, М.Сидги, Дж.Асгерзаде, И.Хагги, Дж.Джаббарлы, А.Даи и др., укоренившаяся в этих традициях, направила З.Халила по пути воплощения фантастического мира детей, их интересов и представлений, их активной жизни на разных уровнях.

Творчество З.Халила, как поэта, занявшего своё имя в детской литературе, создаёт замечательную образную панораму, представленную прозаическими примерами на метатекстуальном уровне и обусловливает необходимость синхронического и диахронического подходов в различных аспектах. Способы выражения, исходящие из богатого народного творчества, возможности, предоставляемые образцами эпического повествования, сказками, легендами, былинами и др., глубина содержания и формы, раскрываемая примерами, ярко проявляется в этноэнергетическом творчестве писателя. Системный анализ всего этого в произведениях З.Халила на сущностном уровне становится актуальным как один из важнейших вопросов.

**Ключевые слова:** эпическое повествование, детская проза, З.Халил, повесть, сказка, повествование, поговорка, пословица, притча